# NAFTALAN




*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

*www.naftalan-ih.gov.az*

**Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir • № 5-6 (421) • 29 fevral 2020-ci il • Qiyməti 90 qəpik**


## İlham Əliyev Münhendə Paşinyanı aciz duruma saldı!

2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanı tutarlı faktlarla çıxılmaz vəziyyətə, aciz duruma saldı.

Konfransda dövlətimizin başçısı təkzib olunmaz faktlar və dəlillərlə sübut etdi ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, Azərbaycandır. Ona görə də N.Paşinyan cənab Prezident İlham Əliyevin səsləndirdiyi tarixi həqiqətlər, təqdim etdiyi tutarlı faktlar və dəlillər qarşısında aciz qaldı.

Ölkəmizin rəhbəri XIX əsrin əvvəlindən başlayaraq 200 il ərzində imzalanmış çoxsaylı saziş və müqavilələri xronoloji ardıcıllıqla sadaladığı halda, Paşinyan bir dənə də olsun hüquqi cəhətdən əsaslandırılmış fakt ortaya qoya bilmədi. Bununla da Prezident İlham Əliyev Dağlıq Qarabağın həm hüquqi, həm də coğrafi baxımdan Azərbaycana məxsus olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Paşinyan isə bu debatda, bir tərəfdən Dağlıq Qarabağın münaqişə tərəfi olduğunu, silahlı qüvvələrə malik olmasını dedi, digər tərəfdən də öz oğlu da daxil olmaqla Ermənistan vətəndaşlarının Dağlıq Qarabağda hərbi xidmət keçdiyini etiraf etməli oldu. Bununla da bütün dünyaya sübut olundu ki, "Dağlıq Qarabağ ordusu" deyilən mif heç bir real fakta əsaslanmır və




Azərbaycan ərazilərini işğal edən də, işğal altında saxlayan da Ermənistan silahlı qüvvələridir.

Beləliklə, Azərbaycan Prezidenti Ermənistan rəhbərinə növbəti dəfə tarix və hüquq dərsi keçərək bildirdi ki, dünya birliyi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsi, digər beynəlxalq təşkilatların bəyanatları, qəbul etdikləri sənədlər bunu bir daha sübut edir.

Dövlətimizin başçısının səsləndirdiyi tarixi faktlar və həqiqətlər qarşısında rəzil vəziyyətə düşən Paşinyan gah susdu, gah da ağ yalanlarla sudan quru çıxmağa çalışdı. Amma onun yalana və böhtana əsaslanan, heç bir fakta söykənməyən cəhdləri nəticəsiz qaldı.

Prezident İlham Əliyevin hər sözü, cümləsi Paşinyana endirilən ağır zərbələr idi. Dövlətimizin başçısı Ermənistanın ölkəmizə qarşı törətdiyi soyqırımları, Xocalı faciəsini, digər işğalçılıq və vandalizm faktlarını bir-bir tərs şillə kimi Paşinyanın üzünə vurdu. Paşinyan isə Azərbaycanın keçmiş prezidenti Ayaz Mütəllibovun fikirlərini təhrif edilmiş formada dilə gətirərək vəziyyətdən çıxmağa çalışdı.

Debatın gedişində Paşinyanın böyük çaşqınlıq içində "Çünki Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın ... yox, üzr istəyirəm, Ermənistanın tərkib hissəsi olmasına qərar verdi" kimi gah nala, gah mıxa vuran, özü də bilmədən həqiqətin aşkara çıxarılmasına kömək edən etirafı onu tamamilə biabır etdi.

Prezident İlham Əliyev isə peşəkar, müdrik siyasəti ilə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu həm tarixi, həm beynəlxalq hüquq, həm də beynəlxalq birliyin mövqeyi kontekstində dünya ictimaiyyətinə çatdırdı, təkzib olunmaz faktlar və dəlillərlə, dəmir məntiqlə Paşinyanın bütün əsassız və çürük iddialarını darmadağın etdi, onu çıxılmaz vəziyyətə, aciz duruma saldı, bütün yalanlarını faktlarla və məntiqlə ifşa etdi, ona tarix və hüquq dərsi keçdi.

## Naftalan şəhərinin 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə dair hesabat iclası keçirilib




19 fevral 2020-ci il tarixdə Naftalan şəhərinin 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə dair geniş Şura iclası keçirilib.

İclasda Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov, şəhərin hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov geniş hesabat məruzəsi ilə çıxış edərək qeyd edib ki, möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu iqtisadi islahatlar kurort şəhəri Naftalanın da bütün sahələrdə inkişafına müsbət təsir göstərib, makroiqtisadi göstəricilərdə müsbət dinamika müşahidə olunub. Qeyd edilib ki, Naftalan kurort şəhərinin hərtərəfli inkişafında əldə olunan nailiyyətlər cənab Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Tədbirdə Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov çıxış edərək Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ötən 2019-cu ildə görülmüş işlər və 2020-ci ildə qarşıya qoyulan hədəflər barədə ətraflı məlumat verib, həmçinin Naftalanda turizmin inkişafı sahəsində, həm də ümumilikdə şəhərdə görülmüş işləri, həyata keçirilən layihələri təqdirəlayiq hesab edib.

Hesabat məruzəsi ətrafında Naftalan şəhər Maliyyə şöbəsinin rəisi Saleh Tağıyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Naftalan şəhər şöbəsinin müdiri əvəzi Eyvaz Nəcəfov və sahibkar İlqar Hüseynov çıxış ediblər.

Sonda yığıncaq iştirakçıları adından Azərbaycan Respublikası Prezidentinə müraciət qəbul olunub.

**REDAKTORDAN**



# "2 fevral-Gənclər Günü" münasibəti ilə tədbir keçirilib



Naftalan Şəhər İcra Hakimiyyətinin, YAP Naftalan şəhər Təşkilatının və şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "2 fevral-Gənclər Günü" münasibəti ilə tədbir keçirilib.

Tədbirdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, ŞİH Başçısı aparatının əməkdaşları, ziyalılar, təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində çalışan fəal gənclər və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları ilk olaraq Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkda Ulu Öndərin xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto-stendlərə baxış keçiriblər.

Heydər Əliyev Mərkəzində davam edən tədbirdə YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev çıxış edərək tədbiri açıq elan etdi və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı çıxış edərək əlamətdar gün münasibəti ilə gəncləri təbrik edib, Azərbaycanın çiçəklənməsi naminə uğurlar arzulayıb. İcra başçısı qeyd etdi ki, bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Şəhər rəhbəri Azərbaycan gəncliyinin bütün sferalarda aktiv fəaliyyəti ilə seçildiyini və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində gənclərin mühüm rol oynamasını diqqətə çatdırdı.

Tədbirdə Naftalan şəhər Gənclər və İdman İdarəsinin rəisi əvəzi Elman Şərəfxanov və YAP Naftalan şəhər təşkilatı Gənclər Birliyinin sədri Ayxan Əsgərov çıxış edərək gənclər gününün yaranma tarixi, dövlət gənclər siyasətinin əsasının qoyulması və gənclər siyasətinin həyata keçirilməsinin uğurlarından danışıblar.

Sonra Naftalan şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən idman yarışlarında uğur qazanmış yeniyetmələr diplom və hədiyyələrlə mükafatlandırıb. Həmçinin, YAP Naftalan şəhər təşkilatı tərəfindən Gənclər Birliyinin fəaliyyətində aktiv iştirakına görə bir qrup gəncə diplom və hədiyyələr təqdim edilib.

**REDAKTORDAN**

# Şəhər İcra Hakimiyyətinin başçısı vətəndaşları müraciətləri əsasında fərdi qaydada qəbul edib

Şəhər rəhbəri qəbul zamanı vətəndaşların problem və istəklərini dinləmiş, müraciətlərin bir qismi yerində həll edilmiş, bəzi müraciətlərin həlli üçün müvafiq göstəriş verilmişdir.

Qəbula gələnlər şəhər rəhbərinə son zamanlar Naftalanda müraciətlərinə operativ və fərdi qaydada yanaşıldığına görə razılıqlarını bildirərək, Naftalan və naftalanlılara göstərdiyi dəstək və qayğıya görə ölkə başçısı möhtərəm cənab Prezident İlham Əliyevə, Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıq ediblər.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında böyük məsləhətçi, sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**



# Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhərin 16, 17, 19 və 20 nömrəli çoxmənzilli yaşayış binalarının sakinləri ilə növbəti səyyar qəbulu keçirilib



Təşkil olunan görüşdə ŞİHB aparatının məsul işçiləri, ŞİHB-nin 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, Bələdiyyə sədri, şəhərdə fəaliyyət göstərən xidmət təşkilatlarının rəhbərləri və sözügedən binaların sakinləri iştirak ediblər.

Səyyar qəbulda şəhər rəhbəri Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, eləcə də vətəndaşlara göstərdiyi diqqət və qayğı barədə geniş məlumat verərək qeyd edib ki, ölkə başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilən belə görüşlərin əsas məqsədi əhalini narahat edən problemləri öyrənmək və tez bir zamanda həllinə nail olmaqdır.

Qəbulda ayrı-ayrı sahələrə dair sakinlər tərəfindən səsləndirilən bir sıra məsələlər yerindəcə həllini tapıb. Digər məsələlərin həlli tapşırıq əsasında aidiyyəti qurumlar tərəfindən nəzarətə götürülüb.

Sakinlər öz çıxışlarında Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda gedən sosial-iqtisadi inkişafdan böyük fəxr duyduqlarını dərin razılıq hissi ilə bildirib, dövlət başçımızın Naftalan şəhərinə göstərdiyi xüsusi diqqət və qayğını yüksək qiymətləndiriblər.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhərin Qurban Namazəliyev adına yaşayış məhəlləsində yaşayan sakinlərlə növbəti səyyar görüşünü keçirib



Təşkil olunan görüşdə ŞİHB aparatının məsul işçiləri, ŞİHB-nin 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, bələdiyyə sədri, şəhərdə fəaliyyət göstərən xidmət təşkilatlarının rəhbərləri və sözügedən məhəllənin sakinləri iştirak ediblər.

Səyyar qəbulda şəhər rəhbəri Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, eləcə də vətəndaşlara göstərdiyi diqqət və qayğı barədə geniş məlumat verərək qeyd edib ki, ölkə başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilən belə görüşlərin əsas məqsədi əhalini narahat edən problemləri öyrənmək və tez bir zamanda həllinə nail olmaqdır.

Qəbulda ayrı-ayrı sahələrə dair sakinlər tərəfindən səsləndirilən bir sıra məsələlər yerindəcə həllini tapıb.Digər problemlərin həlli tapşırıq əsasında aidiyyatı qurumlar tərəfindən nəzarətə götürülüb.

Sakinlər qəbuldan məmnunluqlarını ifadə edərək ölkədə, o cümlədən Naftalan şəhərində həyata keçirilən müxtəlif sosial layihələrə, abadlıq-quruculuq işlərinə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildiriblər.

**Rəhim MURADOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunda aparıcı məsləhətçi**

# Şəhər İcra Hakimiyyətinin başçısı Qarabağ müharibəsi əlilləri və veteranlarının müraciətləri əsasında onlarla görüşüb



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov Qarabağ müharibəsi əlilləri və veteranlarının müraciətləri əsasında onları qəbul edib, istəklərini dinləyib.

Görüşdə icra başçısı Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyeva tərəfindən Qarabağ müharibəsi əlillərinə və veteranlarına göstərilən diqqət və qayğıdan söz açıb.Qeyd edib ki, bugün ölkəmizdə Qarabağ müharibəsi əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsin və rifah halının yaxşılaşdırılması möhtərəm cənab Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin əsas istiqamətlərindən biridir.

Qarabağ müharibəsi əlilləri və veteranları tərəfindən qaldırılmış məsələlərin bəziləri yerində həll edilib, bəzilərinin həlli üçün isə aidiyyatı üzrə tapşırıqlar verilib.

Qarabağ müharibəsi əlilləri və veteranları müraciətlərinə operativ yanaşıldığına, diqqət və qayğı ilə əhatə olunduqlarına görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər.

**Afət MUSTAFAYEVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında baş məsləhətçi, ictimai-siyasi və humanitar məsələlər üzrə işin aparıcısı**

# Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə turistlərin rahatlığı üçün növbəti innovativ addım

Naftalanın kurort şəhəri kimi keçmiş şöhrətini qaytarmasının və yeni məzmunda inkişafının əsasını möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlar, Naftalanda aparılan islahatlar və qarşıya qoyulan vəzifələrin icrası təşkil edir.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun təşəbbüsü ilə şəhərdə fəaliyyət göstərən "Gözəl Naftalan" MMC-nin dəstəyi ilə şəhərə gələn turistlərin yanaşı turistlərin rahatlığını təmin etmək və onları narahat edə biləcək problemlərin həlli paralel aparılır və turistlərin rahatlığı üçün innovativ addımlar atılır.

Bu tip layihələr artıq xaricdə bir neçə ölkədə mövcud olsa da Azərbaycanda ilk dəfə Naftalan şəhərində həyata keçirilir. "Naftalan 24/7" satıcısız mağazanın açılması həm yerli sakinlər, həm də xarici turistlər üçün maraqlı olacaq, onlar arasında rəğbət qazanacaq,



məmnunluğunu təmin etmək üçün daha bir yeni layihə - Azərbaycanda ilk pilot-layihə "Naftalan 24/7" satıcısız mağazanın təqdimatı keçirilib.

Bu gün Naftalanda turizmin inkişafı və turistlərin rahatlığı üçün əlverişli şərait yaradılıb. Hazırda şəhərdə geniş abadlıq-quruculuq işləri və müasir səviyyəli sanatoriyaların tikintisi davam etdirilir. Naftalan beynəlxalq turizm mərkəzinə çevrilib.

2019-cu ildə Naftalana gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə artaraq 40 min nəfərə çatmışdır. Onların 40 faizi xarici turistlərin payına düşür. Bu statistika müstəqillik illərində qeydə alınan ən yüksək göstəricidir. Görülən işlərlə ticarətdə insanlarımız üçün yeni bir addım və yeni konsept olacaq.

Mağazada turistlərin daha çox ehtiyac duyduğu 20-yədək ilk tələbat malları satışa çıxarılıb. Həmçinin "Naftalan məlhəmi" MMC-nin diş pastaları, kremləri, yağları, şampunları, sabunları və digər məhsulları da satışa çıxarılan mallar arasında yer alıb.

Mağazanın uzun müddətli fəaliyyət göstərməsi və gələcəkdə Naftalanın bir neçə yerində açılması nəzərdə tutulub.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan şəhər turizm brendinin yaradılması ilə bağlı seminar keçirilib



Naftalan Şəhər İcra Hakimiyyəti, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə təşkilatçılığı ilə "Naftalan brendinin/markasının ilkin hazırlığı" ilə bağlı seminar keçirilib.

Tədbirdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, ŞİH Başçısı aparatının məsul nümayəndələri, Azərbaycan Turizm Bürosunun sədri Florian Sengstschimid, Dövlət Turizm Agentliyinin kordinatoru Müsəlim Əfəndiyev, Dövlət Turizm Agentliyinin Gəncə Regional Destinasiya Menecmenti Təşkilatının direktoru Zaur Bayramov və şəhərdə fəaliyyət göstərən sanatoriya-kurort müəssisələrinin rəhbərləri iştirak ediblər.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov seminarı açaraq qonaqları salamlayıb, şəhərin mövcud turizm potensialı barədə onlara ətraflı məlumat verib. Həmçinin Naftalan brendinin formalaşması ilə bağlı aparılacaq müzakirələrin, veriləcək təkliflərin Naftalanda turizmin gələcək inkişafı baxımından müsbət və faydalı olacağını qeyd edərək seminarın işinə uğurlar arzulayıb.

Azərbaycan Turizm Bürosunun sədri Florian Sengstschimid seminarda mövzu ilə bağlı çıxış edib və Naftalan şəhər turizm brendinin yaradılmasını işini yüksək qiymətləndirib.

Seminarda Naftalan şəhər turizm brendinin yaradılması ilə bağlı geniş müzakirələr aparılıb və gələcək addımlar barədə qərarlar qəbul edilib.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan şəhərində turizm ilə bağlı keçiriləcək silsilə tədbirlərlə əlaqədar görüş keçirilib



Naftalan Şəhər İcra Hakimiyyəti, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə təşkilatçılığı ilə Naftalan şəhərində turizm ilə bağlı keçiriləcək silsilə tədbirlərlə əlaqədar görüş keçirilib.

Görüşdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, ŞİH Başçısı aparatının məsul nümayəndələri, Azərbaycan Turizm Bürosunun sədri Florian Sengstschimid, Dövlət Turizm Agentliyinin kordinatoru Müsəlim Əfəndiyev, Dövlət Turizm Agentliyinin Gəncə Regional Destiyanasiya Menecmenti Təşkilatının direktoru Zaur Bayramov iştirak ediblər.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov qonaqları salamlayaraq şəhərin mövcud turizm potensialı barədə onlara ətraflı məlumat verib və görüş zamanı aparılan müzakirələrin, verilən təkliflərin və qəbul ediləcək qərarların Naftalanın gələcək turizm potensialının öyrənilməsi və inkişafı baxımından müsbət və faydalı olacağını qeyd edib.

Görüşdə Naftalanın gələcək turizm potensialının öyrənilməsi, sağlamlıq turizmindən istifadənin səmərəliliyi kimi məsələlər müzakirə edilib.

**REDAKTORDAN**

# Müalicəvi xüsusiyyətlərinə görə Naftalan neftinin dünyada bərabəri yoxdur




Azərbaycanda müalicəvi turizmin imkanlarından danışarkən adı dillər əzbəri olan Naftalan neftindən bəhs etməmək mümkün deyildir. Müalicəvi xassələrə malik Naftalan nefti əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin aradan qaldırılmasında əvəzsizdir. Bu təbii müalicə vasitəsinin qaraciyər xəstəliklərinin, oynaqların və oynaqdankənar yumşaq toxumaların müalicəsində müstəsna əhəmiyyəti artıq bütün dünyada məlumdur.

Hələ qədim dövrlərdə Asiyanın müxtəlif guşələrindən, o cümlədən uzaq Hindistandan Azərbaycana üz tutan minlərlə insan müxtəlif xəstəliklərdən xilas olmaq üçün burada Naftalan nefti ilə müalicə olunmuşdur. Tarixi mənbələr sübut edir ki, ta qədimdən başlayaraq Naftalan nefti tuluqlara yüklənərək dəvə karvanları vasitəsi ilə Azərbaycandan Şərq ölkələrinə aparılırmış.

Ölkəmizdə aparılan davamlı sosial-iqtisadi siyasət, regional inkişaf proqramının müddəalarının ardıcıl gerçəkləşdirilməsi nəticəsində kurort şəhəri Naftalanın da hərtərəfli inkişafı üçün son illərdə önəmli işlər görülmüşdür.

Naftalanın kurort şəhəri kimi keçmiş şöhrətini qaytarmaq və yeni məzmunda inkişaf etməyinin əsasını cənab Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlar, qəbul edilən proqramlar və qarşıya qoyulan vəzifələrin icrası təşkil edir.Məhz həmin tapşırıqların icrasının nəticəsidir ki, Naftalan son illərdə beynəlxalq turizm mərkəzinə çevrilib. Bu gün Naftalanda turizmin inkişafı üçün əlverişli şərait yaradılıb. Hazırda şəhərdə geniş abadlıq-quruculuq işləri və müasir tələblərə cavab verən sanatoriyaların tikintisi davam etdirilir.

"Gözəl Naftalan" MMC-nin təsisçisi Həsən Əliyevlə görüşdük. Onunla söhbət zamanı bildirdi ki, son illərdə Naftalanın əvvəlki şöhrətini qaytarmaq istiqamətində həyata keçirilən tədbirlər bəhrəsini verməkdədir. Möhtərəm cənab Prezidentimiz İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində bu məşhur kurort şəhərinin infrastrukturu tamamilə yenilənmiş və müasir müalicə mərkəzləri istifadəyə verilmişdir. Bunun nəticəsidir ki, hazırda ilin bütün fəsillərində, xüsusilə yay aylarında Naftalana nəinki Azərbaycanın bölgələrindən, eləcə də bir çox xarici ölkələrdən müalicə məqsədilə gələnlərin sayı artmaqdadır. Naftalana ənənəvi olaraq Rusiya, Almaniya, İran, Türkiyə, Özbəkistan və başqa ölkələrdən şəfa tapmağa gələnlər çoxluq təşkil edir. Bu insanları kurort şəhərinə gətirən səbəb isə təbii ki, Naftalan neftinin möcüzəvi müalicəsinin dünyaya yayılan şöhrətidir. Buraya gələn turistlər Naftalan nefti və onun əsasında hazırlanan məlhəmlərlə müalicə alırlar. Naftalanın təkcə nefti deyil, həm də təmiz havası şəfa tapmaq üçün mühüm əhəmiyyət kəsb edir.

"Gözəl Naftalan" MMC-nin təsisçisi qeyd etdi ki, son vaxtlar istifadəyə verilmiş istirahət mərkəzinə gələn turistlərin sayı daha çoxdur. Dünya standartları səviyyəsinə uyğun inşa olunmuş mərkəzdə müalicə otaqları, neft vannaları, müasir tibb avadanlığı və digər xidmətlərin göstərilməsi üçün otaqlar mövcuddur. Bu sağlamlıq mərkəzinə gələnlər gün ərzində Naftalan vannası, naftalan-parafin aplikasiyası, masaj, vibromasaj, iynəsancma və digər müalicə üsulları ilə yanaşı, mərkəzin bütün xidmətlərindən istifadə edə bilərlər. Görülən işlərlə yanaşı turistlərin rahatlığının təmin edilməsi məqsədi ilə də bir sıra tədbirlər həyata keçirilir.

Həsən Əliyev bildirdi ki, Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun təşəbbüsü ilə şəhərə gələn turistlərin məmnunluğunu təmin etmək məqsədi ilə Azərbaycanda ilk dəfə "Naftalan 24/7" satıcısız pilot-layihə mağazasının təqdimatı keçirildi. Bu tip proyektlər artıq xaricdə bir neçə ölkədə mövcud olsa da, Azərbaycanda ilk dəfə Naftalan şəhərində məhz bizim istirahət ocağında həyata keçirildi. "Naftalan 24/7" satıcısız pilot-layihə mağazasının açılması həm yerli sakinlərimiz, həm də xarici turistlər üçün maraqlı olacaq, onlar arasında rəğbət qazanacaq, ticarətdə insanlarımız üçün yeni bir addım və yeni konsept olacaq. Bu pilot-layihə "Ədalət-testi" kimi də adlandırıla bilər. Müsahibim qeyd etdi ki, mağazanın uzun müddətli fəaliyyət göstərməsi və Naftalanın bir neçə yerində açılması nəzərdə tutulub.

Onu da qeyd etmək istərdim ki, qış ayları olmasına baxmayaraq, "Gözəl Naftalan" MMC-yə istirahət üçün gələn turistlərin sayı günü-gündən artır. Fürsətdən istifadə edib turistlərlə həmsöhbət olduq. Rusiyanın Kazan şəhərindən olan turist Axatova Fabziya istirahət ocağı haqqında müsbət fikirlərlə danışdı. O, qeyd etdi ki, hər il Naftalana gəlir və vanna qəbul edir, həm də gözəl istirahət edir. Turist Axatova Fabziya bildirdi ki, mən bu şəfa ocağı haqqında internetdən oxumuşdum. Azərbaycan haqqında təsəvvürlərim çox yaxşıdır. Çünki burada biz qonaqpərvərlik, insanların isti münasibətini görürük.

Digər turistlərdən Heydərov Malik, Heydərova Fəridə və başqaları neft vannasının insan sağlamlığına xeyrindən, istirahət ocağının yüksək xidmətlərindən, sərfəli qiymətlərindən danışdılar. Bildirdilər ki, qış ayında burda dincəlməyin başqa gözəlliyi var.

Sonda onu da qeyd edək ki, hazırda Naftalanda fəaliyyət göstərən turizm obyektlərində gün ərzində 2500 qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**




# XX əsrin faciəsi - Xocalı soyqırımı



## Naftalanda "Xocalı faciəsinin iyirmi səkkizinci ildönümü"nə həsr olunmuş geniş anım tədbiri keçirilib

Anım tədbirində Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, ŞİH Başçısı aparatının əməkdaşları,şəhərin idarə, müəssisə, hüquq-mühafizə orqanlarının rəhbərləri və nümayəndələri, Qarabağ müharibəsi əlilləri və veteranları, şəhid ailələri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları "Xatirə kompleksi"ni ziyarət edib, ərazi bütövlüyümüz uğrunda canlarından keçən Vətən övladlarının abidəsi önünə gül dəstələri düzüblər.



Naftalan Şəhər İcra Hakimiyyətinin akt zalında davam edən tədbirdə faciə qurbanları və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrindən biri olduğunu, Xocalı faciəsinə ilk dəfə hüquqi-siyasi qiymətin Ulu Öndər Heydər Əliyev tərəfindən verildiyini vurğulayıb və Xocalı soyqırımı haqqında həqiqətin dünyada tanınması, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün həyata keçirilən məqsədyönlü fəaliyyət bu gün də davam etdirildiyini qeyd edib. Şəhər rəhbəri möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə dünya miqyasında faciəyə hüquqi statusun verilməsi çərçivəsində olduqca böyük işlər görüldüyünü, bu istiqamətdə 2008-ci ildə Heydər Əliyev Fondunun Vitse-Prezidenti, Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq kampaniyasının başlandığını bildirib.



Tədbirdə şəhər S.Vurğun adına 2 nömrəli tam orta məktəbin əməkdar müəllimi Sədrəddin Muradov "26 fevral Xocalı soyqırımı XX əsrin faciəsidir" və şəhər V.Namazov adına Körpələr evi-uşaq bağçasının müdiri Kəmalə Hüseynova "Ermənistanın işğalçı siyasəti " mövzularında çıxış ediblər.

**REDAKTORDAN**

## Şəhərin ümumtəhsil məktəblərində Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünə həsr edilmiş anım tədbirləri keçirilib



Tədbirlərdə Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatının, şəhər Təhsil şöbəsinin nümayəndələri, ümumtəhsil məktəblərinin müəllimləri və yuxarı sinif şagirdləri iştirak ediblər.

Tədbirlərin keçirilməsində əsas məqsəd məktəblilərə Xocalı faciəsində xalqımızın başına gətirilən dəhşətləri, dinc xalqa divan tutaraq misli görünməmiş vəhşilikləri törədən düşmənin əməllərini onlara çatırmaqdır. Tədbirlərdə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İlk öncə məktəblərin foyesində şagirdlərin "Xocalı uşaqların gözü ilə", "Ana harayı", "Xocalı qətliamı", "Mən Xocalı"yam mövzularında rəsm işlərinə baxış keçirilib.

Çıxış edənlər Xocalı faciəsi haqqında ətraflı məlumat verərək bu dəhşətli faciənin Azərbaycan tarixində ən qanlı hadisələrdən biri olduğunu qeyd etdilər, erməni silahlı dəstələri tərəfindən xalqımıza qarşı törədilən bu cinayətin ağır nəticələrindən danışıb, dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirilməsi, əsir götürülən insanların isə dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını bildirdilər.

Tədbirlərdə şagirdlər vətənə, doğma torpağa olan sədaqət və məhəbbət duyğularını "Xocalıya ədalət", "Xocalısız 28 il", "Xocalı əsrin faciəsi", "Qanlı gecə" mövzularında ədəbi-bədii kompozisiyalar, səhnəciklər nümayiş etdiriblər.

Məktəblərdə ilk dərs məşğələsi Xocalı faciəsinə həsr edilib. Məktəblərin divar qəzetləri və bülletenləri faciəni əks etdirən məqalələr və fotoşəkillərlə işıqlandırılıb.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

## Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdəndir

Son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalmışlar. 1905-1907-ci, 1918-1920-ci illərdə və 1988-ci ildən bugünədək davam edən Ermənistan-Azərbaycan münaqişəsinin ən dəhşətli günü isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımıdır. Bu qətliam bəşər tarixinin ən qanlı faciələrdən biri hesab olunur.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı aktı həyata keçirdi. Bu kütləvi qırğın zamanı 613 nəfər öldürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu.106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca qətlə yetirildi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi.Faciə baş verən gecə 1275 nəfər dinc sakin əsir götürüldü, onlardan 150 nəfərin taleyi indi də məlum deyil. Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilib. Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu xalqımıza qarşı apardıqları soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi, öz amansızlığına və qəddarlığına görə, bəşəriyyətə və insanlığa qarşı törədilən cinayət idi.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir.

2002-ci ildə faciənin onuncu ildönümü ilə əlaqədar Ulu Öndər Heydər Əliyev xalqa müraciətində deyirdi: "Bütün bu qanlı hadisələrin qarşısının alınmamasında, o cümlədən Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən-dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın ozamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalif qüvvələri də məsuliyyət daşıyırlar".

Bu gün Prezident İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Azərbaycan həqiqətlərinin, həmçinin Xocalı soyqırımının təfərrüatlarını dünya ictimaiyyətinə çatdırılması istiqamətində də böyük qətiyyət nümayiş etdirir.

**Ardı 5-ci səhifədə**

## Naftalan şəhər uşaq musiqi məktəbində Xocalı faciəsinin iyirmi səkkizinci ildönümü ilə bağlı anım tədbiri keçirilib




Şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə məktəbin direktoru çıxış edərək tədbir iştirakçılarına Azərbaycan tarixində ən qanlı hadisələrdən biri olan Xocalı faciəsi haqqında ətraflı məlumat verib.

Tədbirdə məktəbin şagirdlərinin hazırladığı "Parçalandı Xocalım" adlı ədəbi-bədii kompozisiya dinlənilib və sonda Xocalı faciəsinə həsr olunmuş film nümayiş etdirilib.

**REDAKTORDAN**

# Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdəndir

**Əvvəli 4-cü səhifədə**

Bakının Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılıb, bu abidə cənab Prezident İlham Əliyevin qayğısı ilə yenidən qurulub. Dövlətimizin başçısı hər il fevralın 26-da dövlət və hökumət nümayəndələri ilə birgə həmin abidənin önünə gəlir, soyqırımı qurbanlarının xatirəsini yad edir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində görülən işlərdə Heydər Əliyev Fondunun müstəsna rolu var. Məhz bu fondun dəstəyi ilə Xocalı faciəsinin ildönümü hər il dünyanın müxtəlif ölkələrində qeyd olunur.




Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış "Xocalıya ədalət!" kampaniyası ildən-ilə daha da genişlənməkdədir. Artıq bu aksiyaya dünyanın əksər ölkələrində yüzlərlə insan qoşulub. 2011-ci ilin əvvəllərində isə İslam Konfransı Təşkilatı Parlamentlər İttifaqı Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasına dəstək olaraq bəyannamə qəbul edib. Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və hadisənin dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi və mənəvi qiymətləndirilməsinə nail olmağa yönəlmiş "Xocalıya ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyası dünyanın bir çox ölkəsində yüzlərlə könüllü tərəfindən uğurla həyata keçirilib.

2012-ci il fevral ayının 26-da - Xocalı soyqırımının 20-ci ildönümündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azadlıq meydanından "Xocalı soyqırımı" abidəsinə edilən ümumxalq yürüşü göstərdi ki, qisas anımız, torpaqlarımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil. Bu ümumxalq yürüşü Azərbaycan xalqının sıx birliyini, işğal altındakı torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi. On minlərlə insanın iştirak etdiyi bu yürüş ermənilərə və onların havadarlarına bir mesaj idi. Cənab Prezident İlham Əliyev bununla bir daha bəyan etdi ki, soyqırımı qurbanlarının qanı yerdə qalmayacaq, erməni vəhşiliyi daim bütün dünyaya çatdırılacaq, Ermənistanın təcavüzkar siyasəti ifşa ediləcək.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev torpaqlarımızın işğaldan azad olunması üçün hər addımda qətiyyət nümayiş etdirməsi, erməni vəhşiliklərinin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətindəki həssaslığı bizi qürurlandırır, cəmiyyətimizdəki vətənpərvərlik əhval-ruhiyyəsini artırır. Prezident İlham Əliyevin hücum diplomatiyasının nəticəsi olaraq Xocalı soyqırımını tanıyan dövlətlərin sayı artır. Pakistan, Meksika, Rumıniya, Serbiya, Peru, Panama, Çexiya, İordaniya, Bosniya və Herseqovina, Honduras, Sudan və Kolumbiya parlamentləri, ABŞ-ın 15 ştatı Xocalı hadisələrinin soyqırımı aktı kimi tanınması haqqında qərarlar qəbul ediblər.

Bu gün hər bir azərbaycanlının qarşısında mühüm vəzifələrdən biri Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi dünya ictimaiyyətinə çatdırmaqdır. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin beynəlxalq miqyasda əsl hüquqi-siyasi qiymət alması, onun təşkilatçılarının cəzalandırılması insanlığa qarşı yönəlmiş belə qəddar aktların təkrarlanmaması üçün mühüm şərtdir.

**Kübra MƏMMƏDOVA,**
**Naftalan şəhər İmadəddin Nəsimi adına 1 nömrəli tam orta məktəbin tarix müəllimi**

# Naftalan Şəhər İcra Hakimiyyəti və "PAŞA Sığorta"ASC-nin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Daşınmaz əmlakın icbari sığortası barədə maarifləndirici tədbir keçirilib



Tədbirdə Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatının məsul nümayəndələri, "PAŞA Sığorta" ASC-nin "Nümayəndəliklərin idarəolunma şöbəsi"-nin rəhbəri Əli Zaidov, Gəncə nümayəndəliyinin rəhbəri Sərdar Əlizadə, şəhərin idarə,təşkilat və müəssisələrinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Tədbirdə "PAŞA Sığorta" ASC-nin məsul əməkdaşları mövzu barədə geniş çıxış ediblər.

Tədbirin sonunda iştirakçıların bütün sualları ətraflı cavablandırılıb və bir qrup şəhər sakininə "PAŞA Sığorta" ASC tərəfindən siğortalanan daşınmaz əmlaklarının icbari siğorta şəhadətnamələri təqdim edilib.

**Afət MUSTAFAYEVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında baş məsləhətçi, ictimai-siyasi və humanitar məsələlər üzrə işin aparıcısı**

# Körpələr evi-uşaq bağçasında Xocalı faciəsinin iyirmi səkkizinci ildönümü ilə bağlı anım tədbiri keçirilib



Naftalan şəhər V.Namazov adına Körpələr evi-uşaq bağçasında Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünə həsr edilmiş anım tədbiri keçirilib.

Xocalı faciəsi qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə Körpələr evi-uşaq bağçasının müdiri çıxış edərək Xocalı faciəsinin Azərbaycanın tarixində kədərli bir səhifə, insanlığa qarşı törədilmiş qəddar terror hadisəsi olduğunu qeyd edib. Xalqımıza qarşı törədilən soyqırımı və deportasiyalar barədə həqiqətləri ilk öncə övladlarımıza, sonra bütün dünyaya çatdırmağın, gələcək nəsillərə əyani surətdə göstərməyin və ictimaiyyət arasında onların təbliğinin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Sonda uşaqların ifasında ədəbi-bədii kompozisiyalar təqdim edilib və soyqırıma aid şerlər söylənilib.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan şəhər Məşğulluq Mərkəzində dəyirmi masa keçirilib



Naftalan şəhər Məşğulluq Mərkəzində "Yeni və boşalan iş yerləri barədə məlumatların işəgötürənlər tərəfindən Məşğulluq Altsisteminə (MAS) daxil edilməsi", "MAS-dan istifadə barədə təqdimat və işəgötürənlərlə birlikdə sosial iş yerlərində işçilərin əmək haqqının bir hissəsinin maliyyələşdirilməsi imkanları" və "İşəgötürənlərin məlumatlandırılması və işəgötürənlərlə qarşılıqlı əlaqələrin qurulması" mövzularında dəyirmi masa keçirilib.

Tədbirdə ŞİH Başçısı aparatının məsul işçiləri, şəhər Məşğulluq Mərkəzinin əməkdaşları, şəhərdə fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə idarə,müəssisə və təşkilatlardan gələcəkdə vətəndaşların işlə təmin olunmaları üçün mövcud olan boş(vakant) iş yerlərini Məşğulluq Alt Sisteminə (MAS) yerləşdirilməsi, işçilərin ixtisarı, kvota iş yerləri barədə işçilərin hərəkəti haqqında şəhər Məşğulluq Mərkəzinə hesabat formasını vaxtlı-vaxtında təqdim etməli olduqlarını bildirilib və idarə, müəssisə və təşkilat rəhbərlərinin Məşğulluq mərkəzi ilə daima sıx əlaqə saxlamaları, boş(vakant) iş yerləri barədə məlumatları vaxtlı-vaxtında təqdim etmələri və boş vakansiyalar yarandığı təqdirdə Məşğulluq Alt Sisteminə (MAS) yerləşdirməli olduqları qeyd edilib.

**Gülər SALEHOVA,**
**Naftalan şəhər Məşğulluq Mərkəzində məsləhətçi**

# “Qış Möcüzəsi” adlı fotomarafonun Naftalan şəhərindən olan qalibi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılıb



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Fotoqraflar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən "Qış Möcüzəsi" adlı fotomarafonun qalibləri müəyyənləşib. Gənclər arasında foto sənətinə marağın artırılması, bu sahədə yeni istedadların aşkar edilməsi, ətraf aləmin gənclər tərəfindən estetik dərk edilməsinin təşviq edilməsi məqsədilə həyata keçirilən fotomarafonda gənclər mənzərə, memarlıq, portret, atributlar, mətbəx, yeni il nəfəsi və kənd həyatı mövzuları üzrə çəkdikləri fotolar ilə iştirak ediblər.

Fotomarafonda Naftalan şəhərindən 14-29 yaş arası 38 nəfər gənc iştirak edib, onlardan şəhər S.Vurğun adına 2 №li tam orta məktəbin 10b sinif şagirdi Məmmədova Rahilə Yasin qızı "Yeni il nəfəsi" mövzusu ilə bağlı çəkdiyi foto ilə şəhərimiz üzrə qalib elan olunub.

Qalibin təltif olunması ilə əlaqədar fevralın 27-də şəhər S.Vurğun adına 2 №li tam orta məktəbdə tədbir keçirilib. Tədbirdə ŞİH Başçısı aparatının məsul işçiləri, şəhər Təhsil şöbəsinin nümayəndələri, şəhər tam orta məktəbin rəhbərliyi, müəllim və şagirdləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər dövlət gənclər siyasətindən, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan geniş söz açıblar. Daha sonra qalibə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən göndərilmiş diplom və qiymətli hədiyyə təqdim edilib.

**Elman ŞƏRƏFXANOV,**
**Naftalan şəhər Gənclər və İdman İdarəsinin rəis əvəzi**

# Uşaqların fövqəladə hallara hazır olması valideyn məsuliyyətidir

Bütün valideynlər öz övladlarının sağlamlığı, təhlükəsizliyi üçün daim narahatlıq keçirirlər. Məlumdur ki, hər zaman hər yerdə hər birimiz təhlükəli bir vəziyyətlə qarşılaşa bilərik. Müstəqil qərar qəbul etmək və ya özünü müdafiə etmək qabiliyyəti hələ tam formalaşmayan uşaqların belə təhlükələrlə rastlaşa biləcəyi ehtimalı valideynləri həmişə narahat edir. Bu səbəbdən kiçik yaşlardan belə uşaqları bəzi elementar təhlükəsizlik qaydaları barədə məlumatlandırmaq lazımdır.

Təhlükəli vəziyyətlərdən biri uşağınızın küçədə nəzarətsiz qaldığı hallarda baş verə bilər. İlk növbədə uşaqlara izah etmək lazımdır ki, küçədə, insanlar arasında olarkən valideynlərdən bir addım belə aralanmaq olmaz. Uşaqlarda hər xırda şeyə böyük maraq olduğundan onlar özləri də bilmədən təhlükənin üzərinə belə yeriyə bilərlər. Bu səbəbdən valideynlər, uşaqlara cavabdeh olan şəxslər gözlərini kiçik yaşlı uşaqların üzərindən çəkməməlidirlər. Həmçinin uşaqlarınıza tanımadığı insanlarla danışmamağı və onlardan hər hansı bir hədiyyə qəbul etməməyi tapşırın.

Bundan əlavə, evdən çıxarkən bir-birinizi itirmə halı yaranacağı vəziyyətdə qabaqcadan görüşə biləcəyiniz bir yer təyin edin. Bunu tez-tez təkrarlamaqdan çəkinməyin. Həmçinin kiçik yaşlı uşaqların paltarında ünvan və telefon nömrəsi barədə qeyd qoymaq da məsləhət görülür.

Uşaqlara küçədə yiyəsiz heyvanlardan, bəzən isə ev heyvanlarından gələ bilən təhlükə barədə də bildirin. Onlara heyvanları qıcıqlandırmağa, həmçinin onları sığallamağa və ya qucaqlarına götürməyə icazə verməyin. Qəzəbli itlərin yanından keçərkən isə sakit halda, qaçmadan, arxaya dönmədən və kəskin hərəkətlər etmədən getməyi məsləhət edin. İndiki zamanda uşaqların gigiyena tərbiyəsinə də xüsusi fikir verilməlidir. Belə ki,uşaqlar evə gəldikdə mütləq əl-üzlərini sabunla yumalıdırlar. Övladımızın sağlam böyüməsi şəxsi gigiyena qaydalarına riayət etməsi ilə sıx bağlıdır.

Uşaqlara izah edin ki, avtomobillər nə dərəcədə təhlükəli ola bilər. Uşaqlara işıqforun nə üçün lazım olduğunu, yolu necə və hansı zamanda keçməli olduğunu izah edin. Küçədə uşaqlarınıza oyun oynamağa icazə verməyin. Bundan əlavə, uşaqlara izah edin ki, hətta avtomobil hərəkətsiz halda olsa belə, onun ətrafında qaçmaq, altına girmək və ya arxasında gizlənmək olmaz.

Uşaqları həyətə buraxarkən onlara digər təhlükə mənbələri olan çuxurlar, çalalar, zirzəmi və tikinti sahələri barədə də danışmağı unutmayın. Onların nə dərəcədə təhlükəli olduğunu uşaqlara izah edin. Xüsusən də, lyuklar üzərinə ayaq basmamağı tapşırın, belə ki, onlar açıq ola bilər və uşaqların yıxılmasına gətirib çıxarar.

Uşaqların qayğısına qalmaq hər bir valideynin borcu və vəzifəsidir. Hər zaman onların yanında ola bilmədiyimizə görə, ən yaxşısı odur ki, onları qarşılaşa biləcəyi təhlükələr barədə məlumatlandıraq və lazımi məsləhətlər verək.

**Aran Regional Mərkəzinin Maarifləndirmə sektoru**

# Zibilxanaların, kol-kosun yandırılmasının qarşısı alınmalıdır!

Fövqəladə Hallar Nazirliyinin "112" qaynar xəttinə hardasa zibilliklərin, kol-kosun yanması ilə bağlı hər gün məlumat daxil olur. Yaşayış evlərində, iri ticarət müəssisələrində, zavodlarda və digər böyük obyektlərdə baş verən yanğınlar insanları həyəcanlandırdığı halda, zibilliklərin, kol-kosun yanması çoxlarına əhəmiyyətsiz görünür.

Əslində isə hər bir yanğın fövqəladə hadisədir. Yanğının böyüyü, kiçiyi yoxdur. Çünki çox vaxt böyük yanğınlar kiçik yanğınlardan törəyir. Əgər yol kənarında kol-kos yanaraq meşəyə keçirsə və yüzlərlə hektar meşə sahəsi məhv olursa, yaxud biçilmiş, məhsulu yığılmış taxıl sahəsi yandırılırsa və bu yanğın ot tayasına, evə keçirsə və ekologiyaya ziyan dəyirsə, buna əhəmiyyətsiz yanğın demək olmaz.

Fövqəladə Hallar Nazirliyində "112" qaynar xəttinə daxil olan hər bir məlumata, o cümlədən yanğın hadisəsinə fövqəladə hadisə kimi çox önəm verilir. Yanğın haqqında məlumat daxil olan kimi dərhal Dövlət Yan- ğından Mühafizə Xidmətinin hadisəyə ən yaxın məsafədə yerləşən yanğın hissəsi məlumatlandırılır. Həyəcan siqnalını hər saniyə hazır vəziyyətdə gözləyən əməkdaşlar heç bir dəqiqə keçməmişhadisə yerinə yollanırlar. Yanğının həcmi kiçik olsa da vaxt itirilir, əmək, yanacaq sərf olunur, dövlət vəsaiti xərclənir. Biz hələ hər yanğından sonra yanğın avtomobilinin yenidən su ilə doldurulmasını, yuyulub təmizlənməsini, yanğın şlanqlarının qurudulmasına sərf olunan yanğınsöndürən əməyini demirik. Axı onlar bu enerjini, əməyi insanların səhlənkarlığı, bəzən də qəsdən yandırdığı zibilliklərin, qurumuş kol-kosun, biçilmiş taxıl sahələrinin söndürülməsinə deyil, digər baş verən yanğınların söndürülməsinə sərf edə bilərlər.

Göründüyü kimi məişət tullantılarının, qurumuş kol-kosun, biçilmiş taxıl sahələrinin yandırılması yolverilməzdir və bu kimi yanğınlar ya onun törədəcəyi fəsadları bilməməzlikdən, yaxud da bilərəkdən törədilir.

Əkin sahələrinin yandırılması, həmçinin nəticə etibarı ilə kənd təsərrüfatına yararlı torpaq sahələrinin üst münbit qatının korlanmasına, əkin yerlərində torpaqların qida maddələri balansının pozulmasına gətirir. Həmçinin, əkin sahələrinin, qurumuş kol-kosun yandırılması yaxınlıqda yerləşən digər sahələrdə, yaşayış məntəqələrində və meşə ərazilərində yanğın təhlükəsi yaratmaqla yanaşı, mühəndis kommunikasiya sistemlərinin sıradan çıxmasına səbəb olur. O cümlədən mazut gölməçələrinin də yandırılması ekologiyanın çirklənməsinə, insanların sağlamlığına təsir edir. Odur ki, əhali və yerli özünüidarəetmə orqanları arasında bu istiqamətdə mütəmadi qaydada maarifləndirmə və təbliğat işlərinin aparılmalı, bu cür yanğınların qarşısı alınmalıdır.

**FHN DYNX Yanğına Qarşı Təbliğat Şöbəsi**

## ELAN

# İş axtaran vətəndaşların NƏZƏRİNƏ!

**Naftalan şəhər Məşğulluq Mərkəzi bildirir ki, 1 may 2020-ci il tarixdə Naftalan şəhərində**

## “Əmək Yarmarkası“

keçiriləcəkdir. Sizin hər biriniz bu "Əmək Yarmarka"sında iştirak etməyə dəvət olunursunuz.

Siz müəyyən iş yeri tapmaq və ictimai ödənişli işlə təmin olunmaq imkanı əldə edə bilərsiniz. 1 may 2020-ci il tarixdə saat 11:00-da özünüzlə şəxsiyyət vəsiqənizi, diplomunuzu, əmək kitabçanızı götürüb "Əmək Yarmarkası" keçirilən ünvana, yəni Naftalan şəhər ƏSMM-nin keçmiş binasına gəlməlisiniz.

Əlavə məlumat almaq üçün aşağıda qeyd olunan ünvana müraciət edə bilərsiniz.

Naftalan şəhər Nizami Gəncəvi döngəsi 1,
Naftalan şəhər ƏSMM-nin keçmiş binası.
Naftalan şəhər Məşğulluq Mərkəzi.
**Əlaqə telefonları:** (02235) 2-25-90, 2-31-37

## ELAN

04-18 mart 2020-ci il tarixlərdə Naftalan şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bərdə "ASAN xidmət" mərkəzinin əməkdaşları tərəfindən vətəndaşlara səyyar xidmət göstəriləcəkdir.

Səyyar "ASAN xidmət"in xüsusi avadanlıqlarla təchiz olunmuş avtobusu vətəndaşların xidmətlərdən yararlanmaları üçün Naftalan şəhərində əhaliyə xidmət edəcəkdir.

**Ünvan:** Şıxəli Qurbanov küçəsi

# 21 fevral Beynəlxalq Ana Dili Günüdür

21 Fevral bütün dünyada Beynəlxalq Ana dili günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatı 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə fevralın 21-ni Beynəlxalq Ana Dili Günü elan edib.

Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana Dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır.

Ən sadə şəkildə desək, dil ünsiyyət vasitəsidir, dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkədə, birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir. İnsanın təkamülündə ana dilinin rolu böyükdür. İnsanın doğumu ilə bərabər bəxş olunmuş bu nemətin hər hansı bəhanə ilə qadağan olunması isə cinayətdir. Beynəlxalq Ana Dili Günü hər kəsi bu cinayətə qarşı birləşməyə səsləyir. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur.

2002-ci il 30 sentyabr tarixdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünü müdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addımdır. Bu sənəd Ümummilli Lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" sərəncamları və bu istiqamətdə görülən işlərdə dilimizin inkişafına böyük qayğının təzahürüdür. Ana dilimizi qorumaq, inkişaf etdirmək bizim də borcumuzdur.

**Aytən ƏLİYEVA,**
**“Naftalan” qəzetinin redaktoru**

## İTMİŞDİR

Naftalan şəhərQ.Namazəliyev adına yaşayış məhəllәsi,küçə -12, ev 35-də yaşayan Cabarov İslam Sədi oğluna məxsus 06.09.2018-ci il tarixli texniki pasport-reyestr nömrəsi -510013000538, 1370192№-li Çıxarış itdiyi üçün etibarsız sayılır.

REDAKTOR:
Əliyeva Aytən Həbib qızı

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Şıxəli Qurbanov küçəsi 1.
Telefon: (022) 352-14-55
ayten_aliyeva.1986@mail.ru

Qəzet “Mingəçevir Poliqrafiya Müəssisəsi” MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500